# GÖRKƏMLİ ALİM HAQQINDA MONOQRAFİYANIN TARİXİ ƏHƏMİYYƏTİ

**Rasim Süleymanov**

*BDU, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru*

Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının uzun illər müdiri olmuş, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, BDU-nun Fəxri Professoru Abuzər Alı oğlu Xələfov Azərbaycan kitabxanaşünasıq elminin yaradıcısı, bu sahədə elmi məktəb yaratmış görkəmli alim, bacarıqlı elm və təhsil təşkilatçısı olmuşdur. Azərbaycan kitabxanaşünaslıq nəzəriyyəsinin elmi əsasları A.Xələfov tərəfindən qoyulmuş, alim respublikamızda kitabxana işinin tarixi və inkişaf perspektivlərinə həsr edilən fundamental tədqiqatları ilə Vətənimizdə mədəniyyət tarixinin nəzəriyyə və təcrübəsini zənginləşdirmişdir.

Böyük şəxsiyyət titulunu halallıqla qazanmış Abuzər müəllim Xələfova elə sağlığında onlarca elmi məqalələr, elmi-kütləvi əsərlər və kitablar, ədəbi-bədii oçerklər, publisistik yazılar, sənədli filmlər həsr olunmuşdur. Bu gün də onun cismani yoxluğunda, Abuzər müəllimin özü və elmi irsi haqqında müasirləri və tələbələri tərəfindən bir sıra dillərdə dəyərli əsərlər yaradılır və nəşr olunur.

Abuzər Xələfova həsr olunmuş fundamental elmi əsərlər içərisində Knyaz Aslanın "Elm və təhsil fədaisi" monoqrafiyasının "Şah əsər" kimi tarixə düşdüyü bir həqiqətdir. Monoqrafiyanın redaktoru pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rasim Kazımov, rəyçiləri tarix elmləri doktoru, professor Xəlil İsmayılov, Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyev və tarix elmləri doktoru professor Bayram Allahverdiyev olmuşdur. Monoqrafiya 2006-cı ildə Bakı Dövlət Universitetinin nəşriyyatında çap olunmuşdur. Monoqrafiya haqqında elmi-nəzəri və təcrübi jurnallarda, respublikamızın mərkəzi və yerli mətbuat səhifələrində maraqlı rəylər dərc olunmuşdur. Məqsədimiz bu orijinal monoqrafiyanın tarixi əhəmiyyətini əsaslandırmaq və onun Abuzər Xələfovun zəngin irsi kimi Azərbaycan elm tarixində əbədi yaşayacağını əminliklə təsdiq etməkdən ibarətdir.

Monoqrafiya ön sözdən, səkkiz fəsildən, nəticə əvəzi "Yüz bir suala yüz bir cavab"- dan ibarətdir. "Elmlə, ədəblə tapılar şərəf..." adlı ön sözdə müəllif məharətlə böyük şəxsiyyətlərin tarixlərdə yaşayacağını belə ifadə etmişdir: "Tarix dəfələrlə təsdiqləyib ki, qüdrətini ana Vətəndən və doğma xalqından alan dəyərli şəxsiyyətlər ulu torpaq, qədim millət qarşısında göstərdikləri misilsiz xidmətlərə görə bir nəslin deyil, özündən sonra bir-birini əvəz edən bütün nəsillərin həmişəyaşar örnəyinə çevrilir, bütövlükdə bəşəriyyətin inkişafı və cəmiyyətin tərəqqisi naminə çalışan saysız-hesabsız zəkaları nurlandırır".

Elmi ümumiləşdirmələr və elmi tədqiqatların təhlili sayəsində yüksək yaradıcılıq qabiliyyətinə malik Knyaz Aslan monoqrafiyada milli kitabxanaşünaslıq elminin banisi, kitabxana işi tarixinin görkəmli araşdırıcısı, ali kitabxanaçılıq təhsilinin təşkilatçısı və nəzəriyyəçisi, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun həyat və fəaliyyətinin əsas məqamlarını şərh etmişdir.

Kitabın "Azərbaycan aliminin beynəlxalq nüfuzu" fəslində müəllifin qeyd etdiyi - "Professor A.Xələfov ötən illər ərzində Bakıda, Moskvada, Sankt-Peterburqda, Kiyevdə, Tiflisdə, Daşkənddə, Samarada və başqa şəhərlərdə mədəniyyət tarixinə, kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinə, kitabxana işinin tarixinə dair müdafiə edilmiş beş doktorluq və iyirmidən çox namizədlik dissertasiyasının rəsmi opponenti olmuşdur. Müdafiə prosesindəki çıxışları zamanı o öz dəyərli rəyləri ilə mütəxəssislərin diqqətini cəlb etmiş, özünü kitaxanaşünaslıq elminin aparıcı mütəxəssislərindən biri kimi təsdiqləmişdir" - fikirləri də tarixşünaslıq baxımından təqdirəlayiqdir.

Qeyd etmək lazımdır ki, Knyaz Aslanın bu fundamental monoqrafiyanın nəşrindən əvvəl və sonrakı dövrlərdə də Abuzər Xələfov haqqında dəyərli elmi əsərləri və digər yazıları işıq üzü görmüşdür.